

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 21 (21.682)

31 yanvar 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 30-da Heydər Əliyev Mərkəzində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.

Sonra iqtisadiyyat naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, Azərbaycan Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov, Azərbaycan Turizm Assosiasiyasının rəhbəri Nahid Bağırov və Balıq yemi istehsalı zavodunun direktoru Zaur Salmanov çıxış etdilər.

Prezident İlham Əliyev konfransda yekun nitqi söylədi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Avropa Komissiyasının Avropa qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə baş direktoru Kristian Danielsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr” mövzusunda müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, müasir dövrdə kütləvi informasiya vasitələri geniş imkanlara malikdir. Cəmiyyətin hər bir üzvü kütləvi informasiya vasitələrində yayımlanan materiallardan istifadə edir. Buna görə də teleradio və qəzetlərdə ölkəmizin maraqlarına xidmət edən materiallar hazırlanmalı, jurnalistlər internetin imkanlarından yararlanaraq geniş təbliğat işi aparmalıdırlar. Bu gün Naxçıvan Muxtar Respublikasında teleradio və qəzetlərin fəaliyyəti, jurnalist kadrların hazırlanması sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, Naxçıvanda informasiya blokadası yarılıb. Hazırda muxtar respublikanın kütləvi informasiya vasitələrində 400-ə yaxın əməkdaş çalışır. Ötən dövrdə teleradio və qəzet əməkdaşları muxtar respublika həyatını işıqlandırmağa çalışmış, tamaşaçı və oxuculara dəqiq və obyektiv informasiyalar çatdırmışlar.

Ali Məclisin Sədri Naxçıvanın bugünkü həyatını obyektiv işıqlandıraraq öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirən kütləvi informasiya vasitələrinin əməkdaşlarına təşəkkürünü bildirmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli çıxış edərək demişdir ki, son illər Naxçıvan televiziyası və radiosunun maddi-texniki bazası xeyli gücləndirilmiş, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan televiziyası 2015-ci ildən yüksək keyfiyyətlə – HD formatda yayımlanmağa başlamışdır. 2014-2016-cı illərdə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kadr hazırlığı, maddi-texniki bazanın möhkəmləndirilməsi və yaradıcılıq məsələləri sahəsində mühüm tədbirlər həyata keçirilib. Son 3 ildə 50-dən artıq kadr, o cümlədən Naxçıvan Dövlət Universitetinin dövlət televiziyasına hamiliyə verilmiş Jurnalistika ixtisasını bitirən 17 gənc jurnalist sınaq müddəti dövründə hazırlanaraq Naxçıvan teleradiosunda işə götürülüb. “İctimai-siyasi məsələlər”, “Uşaq, Gənclər və İdman”, “Səhər verilişləri”, “Xəbərlər” redaksiyaları üçün yeni çəkiliş pavilyonları yaradılmış, müasir virtual studiya qurulmuşdur. 2015-ci il iyulun 1-dən televiziyanın, 2016-cı il iyunun 15-dən isə radionun efir vaxtı 1 saat artırılaraq 17 saata çatdırılmışdır. Naxçıvan Dövlət Televiziyasında 85 tənqidi material hazırlanaraq yayımlanmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi üçün yeni internet saytının yaradılması və teleradio verilişlərinin internet üzərindən yayımının təşkili muxtar respublikanın informasiya blokadasının yarılmasında müstəsna əhəmiyyət kəsb etmişdir. İstifadəyə verilərndən ötən dövrdə *naxcivantv.az* saytına dünyanın 81 ölkəsindən 1 milyondan çox müraciət olub. Sahil Tahirli göstərilən yüksək diqqət və qayğıya görə kollektiv adından minnətdarlıq etmişdir.



“Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov demişdir ki, Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinə göstərilən diqqət və qayğıdan qəzet redaksiyalarına da xeyli pay düşmüşdür. 2010-cu ildə “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmişdir. Son illər “Şərq qapısı” qəzeti redaksiyası əməkdaşlarının əməkhaqları dəfələrlə artırılmış, qəzetin yubileyləri qeyd olunmuş, redaksiya yeni xidməti avtomobillərlə, müasir kompüter və səsyazma avadanlıqları ilə təmin edilmişdir. Əldə olunan nailiyyətlərdən biri də qəzetin internet saytının yaradılmasıdır. Ötən dövrdə “Şərq qapısı”nın internet saytına 800 mindən çox baxış olmuşdur. Kollektiv muxtar respublikanın sosial-iqtisadi inkişafının, tariximizin, mədəniyyətimizin, milli dəyərlərimizin təbliğini əsas istiqamət kimi götürmüş, gənc nəsldə vətənpərvərlik hissi aşılayan yazıların hazırlanmasına diqqəti artırmışdır. Təkcə ötən il qəzet səhifələrində tariximizdən, milli dəyərlərimizdən, xalq yaradıcılığından, milli qəhrəmanlarımızdan, gənclərin vətənpərvərlik tərbiyəsindən bəhs edən 250 yazı dərc edilmişdir. Muxtar respublikada aparılan quruculuq işlərinin, Naxçıvanın inkişafının oxuculara daha yaradıcı formada çatdırılması məqsədilə “Naxçıvan: dünən və bu gün” adlı rubrikada yazılar hazırlanır. Son 5 ildə “Şərq qapısı” qəzetində 100-dən çox tənqidi yazı dərc olunmuşdur. Tural Səfərov işdə yol verilən nöqsanlardan da danışmış, qarşıya qoyulan vəzifələrin icrasında səylərini artıracaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 20 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası yaradılmışdır. Lazımi iş şəraitinin yaradılması, müasir texniki avadanlıqların istifadəyə verilməsi səmərəli fəaliyyət üçün şuranın imkanlarını xeyli artırmışdır. Qarşıya qoyulan tapşırıqlara uyğun olaraq, şura ötən 10 il ərzində fəaliyyəti üçün zəruri olan bütün hüquqi təminatların işlənilməsinə və onların icrasına nail olmuş, muxtar respublika ərazisindəki teleradioları reyestrdən keçirmiş, onlara teleradio yayımı sahəsində xüsusi razılıq (lisenziya) vermişdir. Şura həm texniki, həm də yaradıcılıq baxımından efirdə keyfiyyətin yüksəldilməsi üçün teleradioların müxtəlif tematik istiqamətlər üzrə müntəzəm monitorinqini aparır. Əsas diqqət teleradiolarda yol verilən nöqsanların tezliklə aradan qaldırılmasına və monitorinqlərin nəticəli olmasına yönəldilmişdir. Aparılan monitorinqlər göstərmişdir ki, verilən tapşırıqlara teleradiolarda bəzən əməl edilmir. Şuranın kollektivi bundan sonra da teleradioların fəaliyyətini diqqətdə saxlayacaq, tamaşaçı və dinləyici tələbinin ödənilməsinə çalışacaqdır.

Müşavirədə çıxış edən Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı Rəsul Bağırov demişdir ki, Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında ali təhsilli jurnalist kadrların hazırlanması xüsusi yer tutur. Hazırda muxtar respublikada jurnalistika sahəsi üzrə kadr hazırlığı Naxçıvan Dövlət Universitetində həyata keçirilir. 2001-ci ildən universitetdə Jurnalistika ixtisası fəaliyyətə başlamış, 2002-ci ildə Jurnalistika və dünya ədəbiyyatı kafedrası yaradılmış, 2005-ci ildən etibarən Mətbuat tarixi və Radiotelejurnalistika ixtisasları üzrə magistr hazırlığına başlanmışdır. Ötən dövrdə Jurnalistika ixtisasını 163 tələbə bitirmişdir. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası tələbələrinin peşəkar səviyyədə hazırlanması diqqətdə saxlanmış, 2011-ci ildə ali təhsil ocağının Media Mərkəzi fəaliyyətə başlamışdır. Hazırda universitetin “Qeyrət” nəşriyyatı, “Yeni fikir” qəzeti və “Elmi əsərlər” jurnalı çap olunur. 2006-cı ildə tədrisyönümlü “Universitet” televiziyası və 2011-ci ildə “Nuhçıxan” radiosu fəaliyyətə başlamışdır. Bütün bunlara baxmayaraq, jurnalist kadrların hazırlanmasında nöqsanlara da yol verilir. Tələbə jurnalistlər Media Mərkəzinin, xüsusilə “Universitet” televiziyasının və “Nuhçıxan” radiosunun imkanlarından düzgün istifadə etmirlər. Onlarda ilkin peşə vərdişlərinin formalaşdırılması işi də zəif təşkil olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev və ölkə Prezidenti daim mətbuatı qayğı ilə əhatə etmiş, qəzetlərin və teleradioların maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində tədbirlər görmüş, cəmiyyətin inkişafında mətbuatın roluna mühüm əhəmiyyət vermişlər. Bu gün Naxçıvan Muxtar Respublikasında iki televiziya, iki radio, İP və kabel televiziyaları, muxtar respublika əhəmiyyətli qəzet və jurnallarla yanaşı, şəhər və rayon qəzetləri, elm və ali təhsil müəssisələrinin qəzet və jurnalları da nəşr olunur. Kütləvi informasiya orqanlarında çalışan jurnalistlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Dövlət Televiziyası və Radiosunda, “Kanal 35” televiziyasında və “Naxçıvanın səsi” radiosunda, “Şərq qapısı”, şəhər və rayon qəzetlərində maddi-texniki baza gücləndirilmiş, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində yeni çap avadanlıqları quraşdırılaraq nəşriyyat işinin keyfiyyəti yaxşılaşdırılmışdır.

Qeyd olunmuşdur ki, bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd kütləvi informasiya vasitələrinin daha da təkmilləşdirməkdən, tamaşaçı, dinləyici və oxucuların informasiyaya olan tələbatını ödəməkdən ibarətdir. Ona görə də yaradılmış şəraitdən səmərəli istifadə olunmalı, efir və mətbuat səhifəsinə çıxarılan materialların keyfiyyəti yüksəldilməlidir. **İnformasiya vermək, maarifləndirmək, bu günümüzün tarixini yaratmaq, milli dəyərlərimizi təbliğ etmək və ictimaiyyəti düzgün istiqamətləndirmək kütləvi informasiya orqanlarının qarşısında duran əsas vəzifələrdir.** Muxtar respublikanın teleradioları və qəzetləri öz fəaliyyətlərini bu tələblərə uyğun qurmalı, jurnalistlər tarixi-mədəni irsimizin, milli dəyərlərimizin təbliğatçısı olmalı, maarifçilik işi gücləndirilməlidir. Muxtar respublikanın qədim tarixi və abidələri, mədəniyyəti, xalq yaradıcılığı, görkəmli şəxsiyyətləri ilə bağlı televiziya filmləri, qəzet materialları hazırlanmalı və eyni zamanda mətbuat vətəndaş cəmiyyəti quruculuğunda da fəal iştirak etməlidir.

Ali Məclisin Sədri demişdir: Kütləvi informasiya vasitələri qəbul olunmuş dövlət proqramlarının icrasını diqqətdə saxlamalı, qəzetlərdə və teleradiolarda müvafiq materiallar hazırlanmalıdır. Gənc nəslin vətənpərvərlik tərbiyəsində də kütləvi informasiya vasitələrinin üzərinə mühüm vəzifələr düşür. Teleradiolarda və qəzetlərdə vətənpərvərlik mövzusunda materialların hazırlanması davam etdirilməlidir. Teleradio və qəzetlər həm də ictimai nəzarət funksiyasını həyata keçirən

Ardı 2-ci səhifədə

orqanlardır. Hər bir jurnalist ictimai nəzarətçi kimi öz fəaliyyəti ilə cəmiyyətin inkişafına töhfələr verməli, jurnalist araşdırmaları aparılmalıdır. Hər hansı bir sahə üzrə araşdırma aparılarkən, ilk növbədə, mütəxəssis rəyləri nəzərə alınmalı, hazırlanan materiallar ümumi işə kömək məqsədi daşımalıdır.

"Peşəkar kadrlar olmadan hər hansı bir sahədə işi düzgün təşkil etmək mümkün deyil. Kütləvi informasiya vasitələrində təqdim olunan materiallar da o zaman cəmiyyətin tələbini ödəyir, oxucu və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır ki, o, peşəkarlıqla hazırlansın", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu səbəbdən də muxtar respublikanın kütləvi informasiya vasitələri kadr hazırlığını daim diqqətdə saxlamalı, istedadlı gənclər seçilərək işə götürülməli, teleradio və qəzet əməkdaşları üçün təkmilləşdirmə kursları və ustad dərsləri davam etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və "Şərq qapısı" qəzeti hamiliyə verilən ixtisaslar üzrə kadr hazırlığına ciddi diqqət yetirməli, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələrlə teleradioların və qəzet redaksiyalarının əlaqələri gücləndirilməlidir. Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası üzrə kadr hazırlığının səviyyəsi artırılmalıdır. "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun fəaliyyəti davamlı olmalı, yaradıcı tələbə-gənclər Media Mərkəzinə cəlb edilməli, onlarda ilkin peşə vərdişləri formalaşdırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Müasir dünyada insanlar informasiyanı daha çox internet üzərindən əldə edirlər. Bu amil nəzərə alınaraq Naxçıvan Dövlət Televiziyasının və "Şərq qapısı" qəzetinin internet saytları yaradılmış, televiziyanın internet üzərindən canlı yayımı təmin olunmuşdur. Ona görə də kollektivlər peşəkarlığı artırmalı, materiallar hazırlanarkən mötəbər mənbələrə, xüsusilə muxtar respublikada nəşr olunan kitablara istinad olunmalı, ədəbi dil normaları qorunmalı, sözdən yerində və məqamında istifadə olunmalı, fikir tamaşaçı və oxuculara dolğun çatdırılmalıdır. Bu gün insanların daha çox müraciət etdiyi informasiya mənbələrindən biri də sosial şəbəkələrdir. Jurnalistlər bu amili əsas tutaraq sosial şəbəkələrdə fəal olmalı, muxtar respublikanın zəngin tarixi-mədəni irsi və müasir inkişafı ilə bağlı video və foto materiallar hazırlanaraq bundan sonra da sosial şəbəkələrdə yerləşdirilməlidir.

Muxtar respublikada mənəvi dəyərlərimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, dini-mədəni abidələr qorunur və bərpa olunur. Görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir. Kütləvi informasiya vasitələrində muxtar respublika ərazisindəki türk-islam mədəniyyəti abidələri, məscid və ziyarətgahlar haqqında televiziya filmləri çəkilməli, din, cəmiyyət və ailə dəyərlərinin tənzimlənməsi sahəsində görülən işlər geniş təbliğ olunmalıdır. Muxtar respublikada həyata keçirilən quruculuq işlərinin və mövcud sosial-iqtisadi inkişafın kütləvi informasiya vasitələrində işıqlandırılması vacib məsələdir. Bu işdə jurnalistlərlə yanaşı, muxtar respublikanın icra hakimiyyəti orqanlarının da üzərinə mühüm vəzifələr düşür. Ona görə də icra orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri arasında əlaqələr gücləndirilməli, birgə layihələr hazırlanmalıdır.

Diqqətə çatdırılmışdır ki, sabitlik, sosial-iqtisadi inkişaf, tarixi-mədəni irs və zəngin təbiət Naxçıvanda turizmin inkişafı üçün geniş imkanlar açır. Bu sahənin inkişafında aid dövlət qurumları ilə yanaşı, kütləvi informasiya vasitələrinin də üzərinə mühüm vəzifələr düşür. Teleradio və qəzetlər Naxçıvanın zəngin turizm potensialının təbliği sahəsində fəaliyyəti daha da genişləndirməli, turizm obyektləri ilə bağlı tematik materiallar, fotoreportajlar, teleradio verilişləri hazırlanaraq internet saytlarında yerləşdirilməli, sosial şəbəkələrdə geniş yayılmalıdır. Naxçıvan Dövlət Televiziyası və Radiosu üçün yaradılan müasir iş şəraiti fəaliyyəti daha da gücləndirməyə imkan verir. Bu ilin aprel ayının 1-nə qədər televiziyanın və radionun ümumi efir vaxtı artırılaraq 18 saata çatdırılmalı, bununla yanaşı, verilişlərin keyfiyyətli olması təmin edilməlidir. Naxçıvan Dövlət Televiziyasının muxtar respublikanın rayonları ilə əlaqəsinin gücləndirilməsi məqsədi ilə müxbir postları yaradılmış, əlavə ştatlar verilmişdir. Cari ilin fevral ayında müxbir postlarının rayonlardakı fəaliyyəti təmin olunmalı, rayon icra hakimiyyətləri ərazidəki müxbir postları üçün lazımi iş şəraiti yaratmalı, Rabitə və Yeni Texnologiyalar Nazirliyi müxbir postlarının sürətli internetə çıxışını təmin etməlidir.

Ali Məclisin Sədri demişdir: "Şərq qapısı" qəzetinin də muxtar respublikanın rayonları ilə əlaqəsi zəifdir. Qəzet rayon qəzetlərinin redaktorları ilə əməkdaşlıq etməli, "Şərq qapısı"nın hər nömrəsində bir rayonun sosial-iqtisadi inkişafı, tarixi və mədəni həyatı ilə bağlı materiallar verilməlidir. Naxçıvan Muxtar Respublikasında tədris və maarifçilik televiziyası kimi nəzərdə tutulan "Kanal 35" televiziyasında və "Naxçıvanın səsi" radiosunda hazırlanan verilişlər tələblərə cavab vermir. Kollektiv işə ciddi yanaşmalı, veriliş və proqramların keyfiyyəti yüksəldilməlidir. Şəhər və rayon qəzetlərinin sosial-iqtisadi həyatdan uzaq düşmələri ciddi narahatlıq doğurur. Qəzetlərdə yaradıcılıq işi zəifdir. Mövzu seçimində nöqsanlara yol verilir. Peşəkarlıq olmadığı üçün oxucu tələbi də nəzərə alınmır. Şəhər və rayon icra hakimiyyətləri təsisçisi olduqları mətbu orqanların yaradıcılıq fəaliyyəti ilə məşğul olmalı və köməklik göstərməli, gənc kadrlar işə cəlb olunmalı, mövcud problemlər aradan qaldırılmalıdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası və Naxçıvan Mətbuat Şurası səlahiyyətləri çərçivəsində onlara həvalə olunmuş vəzifələri yerinə yetirməlidirlər. Monitorinqlərin keçirilməsi davam etdirilməli, işdə ciddi dönüş yaradılmalıdır. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası muxtar respublikada yayımlanan digər telekanalların da fəaliyyətini izləməli, təhlillər apararaq aidiyyəti üzrə məlumat verməlidir. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin kollektivi çap məhsullarının keyfiyyətini artırmalı, nəşr siyasəti müasir tələblərə uyğunlaşdırılmalıdır. Nəşriyyatda mütəxəssis hazırlığı da diqqətdə saxlanmalı, əməkdaşlar üçün kurslar təşkil olunmalıdır. Kütləvi informasiya vasitələrində nizam-intizama ciddi diqqət yetirilməli, teleradiolar və qəzetlər arasında yaradıcılıq əlaqələri qurulmalı, kollektiv fəaliyyət təmin olunmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulmuş vəzifələrin icrasında muxtar respublikanın kütləvi informasiya vasitələrinin işçilərinə uğurlar arzulamış, çıxışını ümummilli liderimiz Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: **"Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir".**

Müşavirədə qarşıya qoyulan vəzifələrin icrasına nəzarət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatına tapşırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Muzey günləri" davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada muzeylərə kollektiv gedişi təmin edib. Sərəncama uyğun olaraq, "Muzey günləri"nin tərtib olunması müxtəlif təşkilatların kollektivlərinin muxtar respublikadakı muzeyləri ziyarət etməsinə, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi və milli dəyərlərimizi özündə yaşadan eksponatlarla əyani tanış olmasına şərait yaradıb. Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də belə mədəni tədbirlər davam etdirilir.***

Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Məlumat verilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Fəaliyyət göstərdiyi dövrdə çoxsaylı yerli və əcnəbi qonaqların ziyarət etdiyi ünvana çevrilən muzeydə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 4 min 600-dən çox eksponat nümayiş etdirilir.

Bildirilib ki, bu zəngin mədəniyyət müəssisəsində ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə, ölkəmizə rəhbərliyi dövrlərinə həsr olunmuş stendlər, Onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, həmin illərdə Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri nümayiş etdirilir. Muzeyin kitabxanasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Bəhruz Kəngərli Muzeyində, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağında olmuşlar.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasını, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Ədliyyə Nazirliyinin kollektivi Xatirə Muzeyini, Dövlət Gömrük Komitəsinin kollektivi Cəmşid Naxçıvanskinin ev-muzeyini, Maliyyə Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini, İqtisadiyyat Nazirliyinin əməkdaşları "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyini, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi isə Dövlət Bayrağı Muzeyini ziyarət etmişlər.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2017-ci ilin yanvar ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 yanvar tarixli qərarı ilə "Qapalı və sosialyönlü ictimai dövlət müəssisələri üçün dövlət büdcəsinin vəsaitləri hesabına alınan ərzaq məhsullarının qiyməti" təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 26 yanvar tarixli qərarları ilə "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda, çəltik və tütün əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"nda dəyişikliklər edilmiş və "Naxçıvan Muxtar Respublikasında təhlükə potensiallı və dövlət əhəmiyyətli tikinti obyektlərinin Siyahısı" təsdiq edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura iclası keçirilib

***Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının şura iclasında ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov məruzə edib.***



Qeyd olunub ki, bu gün Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatını əhatə edən 55 ilk partiya təşkilatı 6779 nəfər partiya üzvünü öz ətrafında birləşdirir. 2016-cı ildə 108 nəfər Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunub. Onların 51 nəfəri qadın, 89 nəfəri gəncdir.

Bildirilib ki, 2016-cı ildə keçirilən referendumda rayon təşkilatı fəal iştirak edib, Azərbaycan Respublikası Konstitusiyasında edilən əlavə və dəyişikliklər dəstəklənib. Bundan başqa, hesabat ili ərzində tarixi günlər, bayramlar və digər tədbirlər müntəzəm olaraq qeyd edilib.

Məruzə ətrafında Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədr müavini Nihal Məmmədov, Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli, Gənclər Birliyinin sədri Elnur Abbasov və şura üzvü Füzuli Salmanov çıxış ediblər.

**Muxtar RZAZADƏ**

## Gənclər Günü qeyd olunub

***Naxçıvan Dövlət Universitetində 2 fevral – Gənclər Gününə həsr olunmuş "Azərbaycanda gənclər hərəkatının müasir vəziyyəti" mövzusunda tədbir keçirilib.***

Tələbələri bayram münasibətilə təbrik edən rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində gördüyü işlərdən söz açıb. Bildirilib ki, ulu öndərimizin hakimiyyətə qayıdışından sonra gənc nəslə diqqət və qayğı artırılıb, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsipləri müəyyənləşdirilib, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakı təmin olunub, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şərait yaradılıb. Xalqımızın böyük oğlu Heydər Əliyev 1995-ci ildə Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürüb. 2 fevral 1996-cı il tarixdə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib. 1997-ci ildən isə 2 fevral ölkəmizdə Gənclər Günü kimi qeyd olunur.

Sonra universitetin Arxiv işi və muzeyşünaslıq kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Məmməd Əliyevin və İncəsənət fakültəsinin dekanı, dosent Günay Məmmədovanın mövzu ilə bağlı çıxışları olub. Vurğulanıb ki, hər bir Azərbaycan gənci öz tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən bilərək, hörmətlə yanaşaraq və onları yaşadaraq ölkəsinə layiqli vətəndaş, peşəkar mütəxəssis və gözəl insan kimi formalaşmağı qarşısına məqsəd qoymalıdır.

Diskussiya şəklində davam edən tədbirdə müasir Azərbaycan gəncliyinin aktual problemləri və onların həlli yolları, milli dəyərlərin və vətənpərvərlik hisslərinin aşılanması və qorunması, mənəvi-əxlaqi keyfiyyətlərin artırılması kimi məsələlər geniş müzakirə olunub.

**Nərmin CABBAROVA**

*Xəbər verdiyimiz kimi, Rusiyanın Xalq artisti, tanınmış xoreoqraf Dikalu Muzakayev ötən həftə Naxçıvanda səfərdə olub. Səfərin son günü Şərurda yallı ansambllarının və folklor qruplarının rəqslərini izlədikdən sonra onunla görüşüb təəssüratlarını öyrəndik:*

## Dikalu Muzakayev: *Milli mədəniyyətə bağlılıq Naxçıvanda ən yüksək səviyyədədir*



***– Səhv etmirəmsə, bu, sizin Naxçıvana ilk səfərinizdir. Buraya gəlməmişdən əvvəl Naxçıvan haqqındakı təsəvvürləriniz necə idi?***

– Buraya səfər etməmişdən Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı düşdüyü, buranın xüsusi statusu, yəni muxtariyyəti haqqında məlumatım var idi. Həmçinin Naxçıvan adının Nuh Peyğəmbərlə bağlı olan maraqlı tarixi mənim diqqətimi cəlb edib. Diyarınız çox maraqlıdır. Xüsusən buradakı mədəni inkişafın səviyyəsi çox yüksəkdir. Əlbəttə, hər bir insanın təbiətində onun xalqına yüksək hörmət bəslənilməsi istəyi vardır. Bu, təbiidir. Amma deyə bilərəm ki, bunun yolu mədəni əlaqələrdən keçir. Məhz başqa xalqların mədəniyyətinin öyrənilməsi və öz mədəniyyətinin digər xalqlara tanıdılması bunun ən asan yoludur. Bu mənada, bir çox mədəniyyətlərin kəsişdiyi bir nöqtədə region ölkələrinə Azərbaycanın milli mədəniyyətinin tanıdılması baxımından Naxçıvanın mövqeyini yüksək qiymətləndirirəm. Mədəniyyət baxımından Naxçıvanın blokadada yaşamadığını düşünürəm. Naxçıvanlılar niyə blokadada yaşamalıdırlar? Bu, tarixi ədalətsizlikdir.

***– Səfərinizdən hansı nəticələr əldə etdiniz?***

– Əvvəlcə onu qeyd edim ki, çoxdan bəri görmək istədiyim mənzərələrlə tanış oldum. Ənənəvi mədəniyyətin qorunub saxlanılmasını nəzərdə tuturam. Bilirsiniz, yaxşı mühafizə olunmuş mədəniyyət istənilən vaxtda mütəxəssislərin onu yüksək səviyyədə inkişaf etdirməsinə imkan yaradır. Ona görə də bir mədəniyyət xadimi kimi hesab edirəm ki, müasir mürəkkəb dövrdə bizim qarşımızda xalqın yaratdığı mədəniyyətin ilkin formasının qorunub saxlanılması, daha sonra onun inkişaf etdirilib yayılması, üçüncü və dördüncü mərhələlərdə isə mədəniyyətin inteqrasiya olunması vəzifəsi durur.

Bu səfərimizdən çox şey qazandıq. İndiki dövrdə mədəniyyətin, xüsusilə rəqsin xarici təsirlərə çox məruz qaldığını müşahidə edirik. Doğrudur, bunun da öz səbəbləri vardır. Amma buna yol vermək olmaz. Nə qədər çətin olsa da, hər bir xalqın mədəniyyətini qorumaq lazımdır. Biz Şərurda olarkən gördüklərimizlə bunun mümkün olduğuna inandıq. Azərbaycanın minillik keçmişini olduğu kimi yaşadan "Yallı" rəqsləri öz bənzərsizliyini qoruyub saxlayıb. Şərur yallısını onun öz yerində izləmək mənə zövq verdi. Burada yallını uşaqlar da yaşlılar kimi eyni ustalıqla ifa edirlər. Təəssüf hissi ilə qeyd etməliyəm ki, müasir dünyada belə nümunələrə çox az rast gəlirik. Hər bir janrın öz orijinal inkişaf yolu və təqdimat üsulu vardır. Ancaq görünür ki, dünyada saf xalq mədəniyyəti elementləri daşıyan folklor nümunələri sürətlə azalmaqdadır. Bu baxımdan Şərur yallısını Azərbaycanın milli sərvəti kimi qorumaq lazımdır. O təkcə bir rəqs növü deyildir. Yallı xalqın özünüifadəsinin, qədim mədəniyyətinin dünyaya tanıdılması yoludur. Belə rəqslər Yaradanın bir hədiyyəsidir. Poeziya, rəsm, əl işləri nümunələri kimi unikaldırlar.

***– Mədəniyyət xalqları bir-birinə yaxınlaşdıran mühüm körpüdür. Bu baxımdan rəqs sənəti haqqında nə deyə bilərsiniz?***

– Rəqs özünəməxsus mədəniyyət nümunəsidir. Mürəkkəb elementləri, texnikası, üslubları vardır. Amma musiqi kimi o da canlıdır. Dili olmasa da, onları hamı başa düşür, sevir, qiymətləndirir. Rəqslər sayəsində insanlar qovuşur, bir-birinə hörmət edir, humanitar duyğular bəsləyirlər. Rəqslər həm də insanlarda vətənpərvərlik hissləri oyadır, onları coşdurur, müsbət enerji yaradır. Azərbaycanın zəngin mədəniyyətini bütün dünya tanıyır. Sizin muğamınız, aşıq sənətiniz, xalçalarınız dünyaca məşhurdur. Ölkənizdə çox gözəl rəqs mütəxəssisləriniz vardır. Mən də Bakıya dəvət alıb onlarla birlikdə işləməkdən zövq alıram. Artıq il yarımdır ki, Azərbaycandayam. Düşünürəm ki, Azərbaycan rəqsləri daha geniş, daha peşəkar təqdimata layiqdir. Dünya inkişaf edir. Rəqsləri də inkişaf etdirib irəliyə aparmaq lazımdır. Çalışıram ki, biliklərim və təcrübəmlə bu məqsədlərə xidmət edim. Bizim qarşımıza böyük vəzifələr qoyulub. Hər bir işdə irəliyə getmək, inkişaf etmək və mükəmməl olmaq kimi müxtəlif hədəflər vardır. Biz də çalışırıq ki, rəqs və xoreoqrafiya sahəsində Azərbaycanda bir zamanlar mövcud olmuş yüksək inkişaf səviyyəsinə çataq. Bunun üçün ilk olaraq regionlarda mövcud olan milli rəqs nümunələrini öyrənib üzə çıxarmalıyıq. Onların Azərbaycana yaxın bölgələrdə – Türkiyədə, Rusiyada və daha sonra Qərbdə tanıdılması kimi işləri görməliyik. Düşünürəm ki, bu işdə Naxçıvanda qorunub saxlanılmış folklor nümunələri bizim üçün çox dəyərli olacaq.

***– Bu soyuq yanvar günlərində səfər etdiyiniz Naxçıvandan hansı təəssüratlarla ayrılırsınız?***

– Bir fikrimi dərhal deyim ki, əgər səyahətçi getdiyi yerdə xoş qarşılanırsa, sərt hava şəraiti onu üşütməz. Naxçıvanda rastlaşdığım insanlardakı səmimilik və gülərüzlülük hər bir qonağı qəlbən isidir. Çox yerlərdə olduq. Buranın təbiəti çox zəngindir. Heydər Əliyev Muzeyinə, Naxçıvanqalaya ziyarətimdən dərin təəssürat aldım. Duzdağ və Əlincəqalanın böyük turizm potensialı vardır. Möcüzəli yerlərdir. Şərt deyil ki, gəlir qazanmaq üçün hər şeyi istehsal edəsən. Turizm ən gəlirli sahələrdəndir. Bugünkü turistlər nə istəyir? Təhlükəsizlik, rahatlıq, gözəllik, müasir xidmət, yerli camaatın həssaslığı. Bütün bunlar əsas cazibə qüvvəsidir. Hamısı da Naxçıvanda vardır.

***– Naxçıvandan qayıtdıqda dost-tanışlarınıza bura ilə bağlı nə danışacaqsınız?***

– Evə qayıdanda bir daha Naxçıvana səyahət etmək istədiyimi bildirəcəyəm. Qoy gələn dəfə bu, yazda, ya da yayda olsun. İstənilən vaxtda Naxçıvana səyahət etmək gözəldir. Burada hər bir ölkənin vətəndaşı, hər bir peşə sahibi, hər bir yaradıcı insan üçün nəsə qiymətli bir şey vardır. Dostlarıma deyəcəyəm ki, maraqlı qış lövhələri, möhtəşəm tarixi abidələr, qədim folklor nümunələri görmək istəyirsinizsə, Naxçıvana səyahət edin. Burada yaşamaq, yaratmaq çox gözəldir. Sizə də uğurlar arzu edirəm.

*– Müsahibə üçün sağ olun.*

**Əli CABBAROV**

***Naxçıvanın türk-islam mədəniyyəti abidələri***

## Naxçıvan şəhəri – 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı



*Yaxın Şərqin mühüm mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan ərazisi qədim və orta əsrlər zamanı yaradılmış tarix-mədəniyyət abidələri, o cümlədən müxtəlif təyinatlı memarlıq nümunələri ilə çox zəngindir. Ərazidə qədimdən memarlıq sahəsində başlanan inkişaf orta əsrlər zamanı özünün yüksək səviyyəsinə çatmışdır. VII yüzilliyin ortalarından başlayaraq islamlaşan Azərbaycanda bütün quruculuq işləri, o cümlədən memarlıq abidələri özündə yerli türk ənənələrini saxlamaqla bərabər, həm də islami xarakter daşımağa başlamışdır.*

Memarlıqda yaranan qədim ənənələri qoruyub saxlayan və yaradıcılıqla inkişaf etdirən orta əsr Azərbaycan sənətkarları yaranmış yeni şəraitdə bu ənənələri ümumislam mədəniyyətinə xas çalarlarla bacarıqla zənginləşdirmiş, onların sintezinə nail olmuş, nəticədə, Azərbaycan memarlığı abidələri həm də ümumislam mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir. Məhz bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında 10 yanvar 2017-ci ildə imzaladığı Sərəncamın preambula hissəsində qeyd etmişdir ki, *"Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır".*

Azərbaycanın hər yerində olduğu kimi, onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda da yaranmış, bir qismi zəmanəmizədək salamat və ya yarımdağılmış vəziyyətdə gəlib çatan bu irsə keçən yüzillikdə, ateizm təbliğatına geniş meydan verilən Sovet hakimiyyəti illərində biganə və ögey münasibət bəslənilmiş, hətta şəxsiyyətə pərəstiş illərində onların bir qismi qəsdən dağıdılmışdır. Ancaq Azərbaycan öz müstəqilliyini bərpa edib möhkəmləndirdikdən, "Dini etiqad azadlığı haqqında" Qanun qəbul edildikdən, ümummilli lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi mühüm tədbirlərdən sonra xalqımızın keçmiş mədəni irsinə münasibət dəyişmişdir. Beləliklə, tarix-mədəniyyət abidələri, o cümlədən memarlıq nümunələri, ümumislam mədəniyyətinə aid olan bütün abidələr böyük dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsi olaraq həmin abidələrin böyük bir qismi yüksək səviyyədə bərpa olunaraq xalqa qaytarılmış, ölkədə və beynəlxalq miqyasda geniş təbliğ olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq 1200-dən artıq tarix-mədəniyyət abidəsinin qeydə alınaraq pasportlaşdırılmasını xüsusilə qeyd etmək lazımdır. Böyük bir qismi orta əsrlər dövrünə, başqa sözlə desək, Azərbaycanda İslamın qəbul edilməsindən sonrakı vaxtlara aid olan bu abidələr əsasında "Naxçıvan Abidələri Ensiklopediyası" hazırlanaraq Azərbaycan və ingilis dillərində nəşr etdirilmişdir. Yarandıqları vaxtdan keçən müddət ərzində bu abidələrin əksəriyyəti təbii qüvvələrin təsirindən və başqa səbəblərdən aşınaraq məhv olmuş, zəmanəmizədək yarımdağılmış vəziyyətdə gəlib çatmışdır. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 60-dan artıq müxtəlif təyinatlı tarix-mədəniyyət abidəsi bərpa olunaraq əvvəlki görkəminə qaytarılmış, onlara yeni həyat verilmiş, abidələrin tədqiqi və təbliği sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Bu abidələrin əksəriyyəti məscidlər, imamzadələr, xanəgahlar, türbələr və sair İslamla sıx əlaqədar olan abidələrdir. Bu iş indi də sistemli şəkildə uğurla davam etdirilir. Təkcə 2016-cı ildə Azərbaycan xalqının məğlubedilməzlik rəmzi olan Culfa rayonundakı Əlincəqalada, XII əsr Azərbaycan memarlığının təkrarolunmaz nümunələrindən sayılan Gülüstan türbəsində, Şərur rayonunun Xanlıqlar (Parçı) kəndindəki imamzadədə bərpa işləri başa çatdırılmış, Babək rayonunun Nehrəm kəndində möhtəşəm məscid inşa edilərək əhalinin istifadəsinə verilmiş, XII-XIV yüzilliklərə aid Qarabağlar Türbə Kompleksində bərpa işlərinə başlanmışdır. Həmçinin son illərdə muxtar respublikada bir sıra yaşayış məskənlərində möhtəşəm İslam memarlığı abidələri, xüsusilə məscidlər inşa edilərək əhalinin istifadəsinə verilmişdir.

Milli-mənəvi dəyərlərimizə hörmət və ehtiramla yanaşan muxtar respublika rəhbərinin hər il hicri-qəməri təqviminin Ramazan ayında iftar süfrəsi açması, Məhərrəm ayında hökumət üzvləri ilə birlikdə Aşura mərasimində iştirak etməsi əhali tərəfindən rəğbətlə qarşılanır. Bütün bunlar isə dünyanın müxtəlif yerlərindən, o cümlədən müsəlman ölkələrindən muxtar respublikaya gələn alimlərin, turistlərin, dövlət nümayəndələrinin və başqa insanların diqqətindən yayınmır. Məhz bütün bunların nəticəsi olaraq İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabr ayında Bakı şəhərində keçirilən VI konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti 2 iyun 2016-cı ildə "Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzalamışdır. Sərəncamın preambula hissəsində qeyd olunur ki, "həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır".

Ölkə başçısı cənab İlham Əliyevin imzaladığı bu sərəncam 2018-ci ildə İslam mədəniyyətinin paytaxtına çevriləcək Naxçıvan şəhərində, bütövlükdə Naxçıvan Muxtar Respublikası ərazisində son illərdə geniş meydan verilən milli-mənəvi dəyərlərin, əsrlərdən bəri qorunub yaşadılan və yüksək dövlət qayğısı ilə əhatə olunan İslami dəyərlərin, İslam mədəniyyəti abidələrinin qorunub saxlanması, bərpası, inkişaf etdirilməsi və təbliği sahəsində aparılan işlərin daha yüksək səviyyəyə çatdırılmasında mühüm rol oynayacaqdır.

Sərəncamla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sədrliyi ilə yaradılan Təşkilat Komitəsinin 25 noyabr 2016-cı ildə ilk iclası keçirilmişdir. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov çıxış edərək Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qəbul olunan qərar haqqında demişdir: *"Bu qərar əsaslıdır. Ona görə ki, Azərbaycanın 5 min illik tarixə malik qədim şəhəri olan Naxçıvan İslam mədəniyyəti nümunələri ilə zəngindir və bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir".*

Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Təşkilat Komitəsinin sədri Vasif Talıbov çıxışında bu möhtəşəm tədbirlə əlaqədar qarşıda duran vəzifələrdən bəhs edərkən bir sıra məsələlərlə yanaşı, muxtar respublikanın türk-islam mədəniyyət nümunələri, dini abidələrlə zəngin olduğunu bildirmiş, bu abidələrin tanıdılması ilə bağlı onlardan bəzilərinin İSESKO-nun siyahısına salınması istiqamətində iş aparılmasının, muxtar respublikanın dini abidələri, məscid və ziyarətgahları haqqında kitablar nəşr olunmasının nəzərdə tutulduğunu vurğulamışdır.

Bu vəzifələrin müəyyən bir hissəsinin yerinə yetirilməsi alimlərin, xüsusilə tarixçilərin üzərinə düşür. Ona görə də bütün Azərbaycan alimləri, xüsusilə Naxçıvan Muxtar Respublikasında yaşayan və çalışan tədqiqatçılar, həmçinin aid təşkilatların nümayəndələri yubanmadan öz qüvvələrini səfərbərliyə almalı, qarşıda duran vəzifələrin icrası və uğurlu həllinə nail olmaq üçün səylə çalışmalıdırlar.

***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu "Şərq qapısı" qəzeti redaksiyası ilə birgə "Naxçıvanın türk-islam mədəniyyəti abidələri" rubrikasında yazılar hazırlayıb oxuculara təqdim edəcək. Növbəti nömrələrdə Naxçıvanın türk-islam mədəniyyəti abidələri barədə yazılarla çıxış edəcəyik.***

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Ömrün azdır, qabağın yazdır

## Bu gün kiçik çillə başlayır



***Naxçıvanda qış sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayır. Unutmayaq ki, ancaq qışın və yazın qarşılanması təntənə ilə keçirilir. Başqa sözlə desək, insanlar qışı xoş qarşıladıqları kimi onu təntənəli şəkildə də yola salırlar.***

Xalqımız qış dövrünü xalq təqviminə uyğun olaraq çillə adı ilə üç yerə bölmüşdür. Böyük çillə – 40 gün (21 dekabr-30 yanvar), kiçik çillə – 20 gün (31 yanvar-19 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral-20 mart) olur. El arasında bu üç çilləni üç bacı, daha çox böyük və kiçik çillələrlə bağlı olaraq böyük və kiçik bacı adlandırırlar. El-oba arasında bu iki bacı haqqında deyilmiş bir söyləmə vardır.

*Rəvayət.* Böyük çillə ömrünü başa vurub geri qayıdanda kiçik çillə ilə qarşılaşır. Kiçik çillə böyük çillədən soruşur: Nə etdin? Böyük çillə cavab verir ki, tayaları yarıladım, qalaqları sökdürdüm. Kiçik çillə cavab verir: “Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir təknəsində donduracağam”. Böyük çillə deyir: “Heç nə edə bilməyəcəksən, çünki ömrün azdır, qabağın yazdır”.

Xalq arasında iki çillənin birbirini əvəz etməsi “təhvil-təslim dövrü” adlanır. Ordubad və Culfa bölgələrində əhali qışın ən qorxulu dövrünü “cahar-cahar” adlanan dövr hesab edir ki, bu da dörd gün böyük çillədən, dörd gün isə kiçik çillədən götürülür. Xalq meteorologiyasına görə, böyük çillənin son dörd günü və kiçik çillənin ilk dörd günü qışın ən sərt günüdür. Culfa bölgəsindən topladığımız etnoqrafik çöl materiallarına görə, bu bölgədə böyük çillə qurtarıb, yerini kiçik çilləyə verdiyi dövrdə (“cahar-cahar” adlanan dövr nəzərdə tutulur) “çillə kəsdi” oyunu və ya şənliyi keçirilirdi. Oyun zamanı qardan heyvan fiqurları düzəldib onun ətrafına yığışar, şənlik edərdilər. Məqsəd qışdan qorxmamaq, qışa sinə gərmək idi.

İnsanlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da “çillə kəsmək” adlanırdı. Kiçik çillə daha çox şaxtalı keçdiyinə görə bu müddətə “qışın oğlan çağı” da deyilir. Kiçik çillənin şaxtalı, boranlı olmasını “kiçik çillənin soyuğu, təndirə qatar toyuğu” kimi el deyimindən də görürük.

*Kiçik çillə vay çillə,*
*Qarlı dumanlı çillə,*
*Gəbə, kilim toxuduq,*
*Cəhrəmizdə var çillə.*

Kiçik çillə çıxanda da havada bir dəyişiklik yaranır. Lakin ömrünü başa vurarkən kiçik çillə haqqında deyərlər ki, “ömrünə bir şey qalmayıb, heç nə edə bilməz” və ya “ömrün azdır, qabağın yazdır”.

Kiçik çillənin adı ilə bağlı xalqımız bir söz də qoşubdur:

*Kiçik çillə*
*Boyu bir belə*
*Hikkəsi iri belə...*
*Gəlişi oldu hayınan*
*Gedişi oldu vayınan.*

Ədəbiyyat materiallarına əsaslanaraq demək olar ki, Novruz bayramından əlli gün qabaq, böyük çillənin sonunda odla əlaqəli olaraq “Səddə” bayramı keçirilirdi. Bunu Nizami Gəncəvinin “İsgəndərnamə” poemasından da görürük.

Etnoqrafik çöl materiallarına görə, xalq təqviminə uyğun olaraq böyük çillənin sonlarına “qurdun insana yerikliyən dövrü” də deyilmişdir. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edir. El təqvimində qışın bərk şaxtalı günlərinə, böyük çillənin sonuna və kiçik çillənin əvvəllərinə həm də “Qışın qulan (atın balası) salması” dövrü deyilir.

Araşdırmalardan məlum olmuşdur ki, Ordubadda böyük çillə ilə kiçik çillənin arasındakı “təhvil-təslim” dövründə böyük çillə və ya ulu çillə qurtarıb yerini kiçik çilləyə verən günü “Çoban bayramı” və ya “Saya gəzmə” adlı mərasim təşkil edərdilər. Mənbələrin verdiyi məlumata görə, bayramı keçirməkdə əsas məqsəd yer ruhlarını razı salıb, döl bərəkətini artırmaq və heyvanları sağlam vəziyyətdə yaza çıxarmaq idi. Eyni zamanda bu tarix maldar üçün yeni bir ilin başlanğıcı kimi də qəbul edilirdi.

Onu da qeyd edək ki, kiçik çillənin onuncu günü, yəni fevral ayının 9-da Naxçıvanda xalq arasında “Xıdır Nəbi” adı ilə bilinən mərasim qeyd olunur. Bu haqda növbəti məqaləmizdə bəhs edəcəyik.

**Asəf ORUCOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı,tarix üzrə fəlsəfə doktoru, dosent***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 28 fevral 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 59,96 kv.m ümumi, 47,32 kv.m yaşayış sahəsindən ibarət 3 otaqlı, 2 nömrəli mənzil | Naxçıvan şəhəri, Şadlinski küçəsi, bina 1, mənzil 2 | 66.000 | 56.100 | 3.300 |
| 2. | 0,1395 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 40,86 kv.m yaşayış, 81,88 kv.m qeyri-yaşayış, 40,26 kv.m köməkçi sahədən ibarət 2 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Aşağı Uzunoba kəndi | 39.000 | 33.150 | 1.950 |
| 3. | 0,0809 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 43,56 kv.m yaşayış, 31,68 kv.m köməkçi sahədən ibarət 6 nömrəli fərdi yaşayış evi | Culfa şəhəri, H.Cavid küçəsi | 35.200 | 29.920 | 1.760 |
| 4. | 14,3 kv.m ümumi, 14,3 kv.m əsas sahədən ibarət qeyri-yaşayış sahəsi | Naxçıvan şəhəri, “Əlincə” məhəlləsi, bina 2B, 1-ci mərtəbə | 28.000 | 23.800 | 1.400 |
| 5. | 0,0756 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 58,32 kv.m yaşayış, 49,08 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 20.000 | 17.000 | 1.000 |
| 6. | MH seriyalı 0017559; MH seriyalı 0017560; MH seriyalı 0017561; MH seriyalı 0017562 nömrəli çıxarışlara əsasən torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı) | Babək rayonu, Şıxmahmud kəndi | 20.000 | 17.000 | 1.000 |
| 7. | MH seriyalı 0017733; MH seriyalı 0017734 nömrəli çıxarışlara əsasən torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı) | Babək rayonu, Cəhri kəndi | 15.000 | 12.750 | 750 |
| 8. | 0,1098 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 65,37 kv.m yaşayış, 32,5 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 10.000 | 8.500 | 500 |
| 9. | 0,1271 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 51,2 kv.m yaşayış, 17,7 kv.m köməkçi sahədən ibarət 3 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Yeni Kərki kəndi | 10.000 | 8.500 | 500 |
| 10. | 0,0446 hektar torpaq sahəsində yerləşən ümumi sahəsi 95,7 kv.m olan, 49,0 kv.m əsas, 46,7 kv.m köməkçi sahədən ibarət qeyri-yaşayış sahəsi (Sığorta Kommersiya Şirkəti) | Naxçıvan şəhəri, Nizami küçəsi, bina 41, 2-ci mərtəbə | 5.000 | 4.250 | 250 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5% məbləğində beh “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsindəki AZ87AİİB45090249443100007500 və “Kapital Bank” ASC-nin Culfa rayon filialındakı hesablaşma hesabına 24 fevral 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki № AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 28 fevral 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Futzal birinciliyi başa çatıb



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəb və İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi futzal üzrə şəhər birinciliyinə yekun vurulub. 2 fevral – Gənclər Günü münasibətilə 2003-2004-cü illər təvəllüdlü idmançılar arasında keçirilən birincilikdə Naxçıvan şəhər 7, 14, 16 nömrəli və Heydər Əliyev adına tam orta məktəblərin komandaları mübarizə aparıblar.

Birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və 14 nömrəli tam orta məktəbin direktoru Gülşən Ağayeva muxtar respublikada idman sahəsində görülən işlərdən, qazanılan uğurlardan danışıblar.

Olimpiya sistemi üzrə keçirilən yarışın yarımfinal mərhələsində Heydər Əliyev adına tam orta məktəbin komandası 7 nömrəli tam orta məktəbin komandasını (2:1), 14 nömrəli tam orta məktəbin futzalçıları isə 16 nömrəli tam orta məktəbin futzalçılarını (1:0) üstələyərək finala vəsiqə qazanıblar. Həlledici qarşılaşmada həsabda geri düşmələrinə baxmayaraq, özlərini toparlayan 14 nömrəli tam orta məktəbin futzalçıları meydanı 3:1 hesablı qələbə ilə tərk ediblər.

Sonda qalib və iştirakçı komandalara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Zəka sahibləri məktəb birinciliyində qüvvələrini sınayıblar

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə 2 fevral – Gənclər Günü münasibətilə şahmat üzrə daxili birincilik keçirilib. Birincilikdə məktəbin 128 zəka sahibi qüvvəsini sınayıb. Açılış mərasimində çıxış edən məktəbin direktoru Gülşən Ağayeva Gənclər Günü haqqında tədbir iştirakçılarına məlumat verib və bildirib ki, 2 fevral – Gənclər Gününün elan olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli liderin hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyulub. Bunun nəticəsində Azərbaycan indi bir idman ölkəsi kimi dünyada tanınır, idmançılarımız çıxış etdikləri beynəlxalq yarışlarda bayrağımızı dalğalandırırlar. Muxtar respublikada da idmana və idmançılara böyük diqqət və qayğı göstərilir.

Sonra yarışa start verilib. Olimpiya sistemi üzrə keçirilən yarışda bütün rəqiblərini üstələyən VIII sinif şagirdi Rəvan Məmmədov birinciliyin qalibi olub. Digər iki pillədə isə məktəbin IV sinif şagirdləri Rəvan Həsənzadə və Əkbər Məmmədov qərarlaşıblar.

Sonda qaliblər diploma təltif olunublar.

Ceyhun MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 84